

■ Tuğrul Tanyol

## Bəyaz at

Zülmət şəhərləri səssizcə gəzdim -
Boş meydanları, kirli küçələri.
Hamı öz əks-sədasının izindədi.

Qaranlıq həyətlərdə oturdum -
İçimdə vəhşi tamtamları inləyərkən ölümün.
Bütün bütlərin yenidən dirildiyini gördüm
Bəyaz bir at kimi uzaqlaşıb itərkən ömrüm.

Sən yatırdın
Kirli küçələrinə gün düşməyən otağında.
Evlər bir-bir aşarkən üstümə,
Yollar canlanıb sıxarkən boynumu
Yatırdın sən,
Yatırdın sən
Oyanmaq üçün bir başqa gecədə...

Ağır qanadlarıyla böyüyərkən səssizlik,
Qaranlıq sakitcə qonarkən pəncərənə,
Kölgələr asarkən özünü başqa kölgələrə...
Şəhər odlanır, eşidirsənmi?

Zülmət şəhərləri səssizcə gəzdim -
İçimdə vəhşi tamtamları inləyərkən ölümün.
Ağrının ağrıya, nifrətin nifrətə,
Qaranlığın qaranlığa çevrildiyini gördüm
Bəyaz bir at kimi uzaqlaşıb itərkən ömrüm.
Pıçıltı ağacı

Əsir qaleraları çürümüş dənizlərin,
mən öz içimdə dustağam.
Qır pəncərəni!

Qaranlıq quyulardan sallanmış
iki gözüm, iki ölüm, iki al qərənfil.
Qırılmış pəncəsi susqunluğun.
Qır pəncərəni!

Oyandı pıçıltı ağacı.

## Dar qapı

Səmimi deyildik -
gülən gözlərimizdə
ağlamaq vardı.
Susmaq bir başqa ağrıydı,
danışmaq böyük bir günah.
Elə bir dünyaya açılmışdı ki gözlərimiz,
çıxmaq istədik,
halbuki bütün qapılar dardı.

## Dost günlərin sonu

Qaraçı ruhum, cilovla artıq atını,
Bundan o yana yol yoxdu.
Axşam - rüzgar qanadlı bir quş
çökür ağır-ağır, indi
Səfərlərin suya düşdüyü andır.

Əyilib bax üzümə -
Gözlərimə çəkilmiş qədim atlaslara,
Ulduzların töküldüyü o köhnə yollara bax,
İndi orada
Nə ağır və uzun karvanların
Qonaq elədiyi çaylar,
Nə köçəri sərxoşluğu var
İsti yay gecələrinin.

Gecənin damıdır, açılanda
Kainatın qadına xas gözəlliyi,
Min bir səma altında yatdığımız,
Sevişib çoxaldığımız o azad
Qürurlu və dost
Günlərin sonuna gəldik.

Hansı həsrətdir bu, öldürür bizi?
Qapısı aralı otaqlarda əridi şamlar,
Saat neçədi, haradayıq?
kimindi bu tellə örtülü divar?
Kimin əsəri bu qaranlıq küçə?
Bu bəmbəyaz kəfən,
bu qəfildən ölüb itən zaman?
Bir ox atıb yıxsam gecəni,
Önümdə diz çökəcək işıqlı günlər
Çılpaq sinəmizdə yeni yuyulmuş yaralarla,
Və ağacın ən hündür budağında
Gurultuyla açarkən ürəyim.

Qaraçı ruhum, cilovla artıq atını,
Yolun sonuna gəldik.

## Noyabr sərxoşluğu

Yarpaqlar
ağaclarını tökürlər,
saçları bir qadını,
bir adam
masaya tökür duyğularını,
qədəhinə tökür məni içkim,

## Yoxsa, belə deyilmi?

Noyabrdır, hə,
ağaclar
tökürlər yarpaqlarını,
bir qadın
oturub üzbəüz pəncərədə
tökür sarı saçlarını,
noyabrda bir adam
lül-qənbər
axtarır masada duyğularını,
hansı ki, çoxdan itirib.

Mənsə oturub onu dinləyirəm,
noyabr çox keçib,
olduqca gecikmişəm evə,
həm fərqindəyəm
su qatıblar içkimə.

Çöldə noyabr...
Yarpaqlar
bir ağacı yavaş-yavaş
töküb bitirdilər,
pəncərədəki qadın
çoxdan bağladı pərdəsini,
və kişi
bir zərbəylə parçaladı
güzgüdəki meyxanəsini.

Mənsə son siqaretimi yandırıb
itdim küçələrdə,
Noyabrı, məni
və yarpaqları süpürən
davakar küləkdə
yarpaqlar uzaq bir gecəni
qızıla boyamağa getdilər.
Qadının sarı saçları
bilmirəm indi kimin qoynunu bəzəyir,
və noyabrdakı adam
sərxoşluğunu qatıb içkisinə,
son nəfəsini bir qurtumda içir.

Mənsə
yarpaqsız, qadınsız
və tənha
bir axşamı töküb ürəyimə
sabaha qədər
küləkdə gəzəcəyəm.
Bəlkə, gün doğarkən
sahildə
dənizi tənhalığımla kirlədib
bir qağayı tutacağam ovuclarımda,
kimsə bilməyəcək məni...

## Əlindən tutan gün

Günü əlindən tuturam -
Elə ürkək,
Mən tutmasam, qaranlığa düşəcək.
Qaranlığa düşəcək sevgilər,
Qapılarını yalnız nifrət döyəcək.

Aram-aram yüksəlir bir təbilin kar səsi,
Bir-bir yıxılır ağaclar, meşə seyrəlir.
Tutun əlimdən, əlimdən tutun, yoxsa
Bu canavar səssizlik, bu ürkəklik, bu ölüm...

Səbirsiz ayaq səsləri nə toplanır, nə dağılır,
Qərarsız külrəngli buludlar, nə zaman yağacaq yağış?
Hanı, haradadı ildırımlar, göy gurultuları, harada?
Sadəcə bu kar təbil
Bədənimə yavaş-yavaşr
Yeriyən bu xəncər.

Günü əlindən tuturam,
Əlim alışdırılmış ocaq kimi yanır.
Yanır qaranlıq, qızıl, ət qoxusu, kül və qan.
Şəhərin bacalarında çıxır dayanmadan,
Dayanmadan altından keçir körpülərin,
Dayanmadan qucaqlayır qalaları,
Dayanmadan sızır prospektlərdən,
Böyüyür, böyüyür, böyüyür!
Bu canavar səssizlik, bu çılğınlıq, bu ölüm.

Beynimin çıxmaz küçələrində
Gedərək artır çəkic səsləri,
əks-səda verir şəhər boyunca
Taxtanı şövqlə qucaqlayan mismar.

Həyat, ucalan darağacının qollarında
Yatmış bir uşaq kimi
Tabutunda yellənir.

## Güzgü

Böyük bir boşluqmuydu -
hansı ayaq səsləri
zalım, yırtıcı və kirli
gecənin ürəyini qanadırcasına keçən?

Böyük bir güzgüydü, yox
əks olan həmişə qorxumuzdu,
açıldı bir-bir bütün sirlər,
şüşənin arxasında nə gördünüz?

## Əlacsız şeir

Fırtınalar toxudum yalnızlığımdan,
Tənha yamaclarında gəzdim ömrümün.
Sönməz ocaqlar qaladım alnımın ortasında,
Bir kölgəmiydi toqquşduğum, yoxsa gözlərin.

Hər gecə əllərim uzanır bir başqa cəhənnəmə,
Hər gecə küçələr düşər arxamca.
Xəyanət bir bıçaq kimi vurular bədənimə,
Hər gecə bir başqa şair
Asar özünü sakitcə pəncərəsindən...

## Bir ölüm gecəsi

Saat iki,
bir az əvvəl səkidə vurdular məni.
Üzüqoylu qalıb bədənim
eləcə,
üç-dörd yiyəsiz it və gecə.

Birdən
Nə bir ağrı, nə bir qorxu -
Qanımın sakitcə axdığı yerdən
Canım ayrılır tənimdən.

İndi burada,
bu qaranlıq meydanda
bütün ölümləri eyni anda yaşayıram,
kainatın damarları bir-bir parçalanır,
uzaqlaşıram, uzaqlaşıram,
səmaya düşən bir damlaya dalıb
İstanbula baxıram.

İstanbulun yeddi təpəsində yeddi ocaq qalayıb
Yeddi təpəsinə İstanbulun sürünüb keçən rüzgar.

Eşidirəm, qaranlıq sarsıntılarla çalxalanır,
Bir azdan bir bomba partlayacaq.
Bir başqa adam
həyatın sərhədini keçəcək.
Bir azdan bir tapança səsi
yaracaq səssizliyi,
prospektə yapışan qaranlığı
və bu fevral gecəsini.

Saat iki,
bir yük maşını sürətlə keçir qaranlıqdan.
İşıqları sönmüş qəhvəxanada
rüzgarda sovrulur nağıllar...

Uçuram lodosun məni götürdüyü yerlərə,
rüzgar əl dəyişdirir və atır məni isti iqlimlərə.
Çıxdığım bu uzaq səfərdə ardımca gəlir gecə.

İndi burada
Somalili bir yalqız uşaq
aclığın mükafatını daşıyır
şişmiş ürəyində.
Afrikalı yorğun döyüşçünün
açıq qalmış gözlərində
ulduzlu bir azadlıq gecəsi
vurulub yıxıldığı yerdə.

Bir az qabaqda
ağ canavarların parçaladığı
bir qara uşaq,
qaçmaqdan yorulmuş bir qadın
gecəyə məğlub olan bir aslan
kükrəyib sarsılır.

Bütün ölümləri bir arada yaşayır
artıq döyünməyən ürəyim.
bütün ölümlər mənim ölümüm -
vuran elə həmişəki, vurulan mən.

Uzaqlaşıram, uzaqlaşıram,
bu qəribə planetə təpədən baxıram,
ekvatorda bir qan qurşağı
getdikcə genişlənir,
bir top gülləsi kimi fırlanır kainat.

Davamı səhifə 15-də

*Əvvəli səhifə 14-də*

Xərçəng tropiki oyanıb
sancır gecəni,
meşə yanğını bürüyüb
başqa tropiki.

Santyaqoda işgəncə görən bir adamın
kosmosu yarır fəryadları,
Manilada asırlar bir adamı,
İndoneziyada ölən yüz minlərin qışqırtıları
bir ölüm gecəsi dağıdır qaranlıqları.

İşgəncə görən adamın kəsilir səsi,
bitir işgəncəsi.
asılan adamın səssizcə qırılır boynu,
və yorğun döyüşçünün gözlərində
ulduzlu bir Afrika gecəsi...

Saat iki,
ovcumda yatır kainat,
və bu dünya, altımdakı
qaranlıq bir nöqtə kimi,

Planet deyilən
qaranlıq canavarın
saysız qruplarından biri;
bir kiçik kəhkəşan
sayısız Günəş sistemləri
və kiçik bir dünyanın
bir küncündə
yeddi təpəli bir şəhərin
ətəyində
vurulub yatıram.

Solğun ay işığı işıqlandırır məni,
və arxamda açıq qalan pərdəni.

## Qış məhbusu

Bir qışa vurulmuşduq,
Yalnız göyərçinlər kimi
Həyətlərə məhbus.
Sakit, sərin və yalansız
Bir axşamın məzlum
Uşaqlığıydı içimizdəki.

İndi üşüyürəm, halbuki yay,
Günün çınqılları sürüşür ovuclarımdan.
Açılıb bütün çeşmələri yalnızlığın,
Sən yoxsan, qəlbimə işləyir ayaz.

## Sən əlimdən tutanda

Sən əlimdən tutanda
Dəniz basardı içimi,
Sən əlimdən tutanda, ürəyim
Günlərlə yaşıl yosunlara ilişib,
Sonra axıntılarının ardınca getmək istəyərdi.

Günlərlə göz bəbəklərini alışdıran
o gizli alovun qaynağını soruşardım özümdən.
Gecələr boyu yolumu axtarardım aşılmaz təpələrdə.
Sonra işıqlar sönər,
sonra ulduzlar düşərdi içimdəki sərin göllərə.
Sən əlimdən tutanda mənmiydim,
yoxsa bir başqası yeriyən səninlə?..
Dalğaları və rüzgarı tapdalamadan yeriyən.

Sən əlimdən tutanda
Bir mavilik çökərdi gözlərimə.
Sonra bütün dənizlər çəkilər,
Bir meşə uğultuyla sarsılar
Bir göyərçin dəstəsi havalanardı
Qış bürümüş ürəyimdən.
Sən tutanda əllərimdən
Həyətin ağ daşlarına tökülərdi,
Qızıl yarpaqları çinarın,
Və mən günlərlə
O yarpaqlara gömülüb ölmək istərdim.

Jalüzləri açıq qalmış qədimi evlər kimiydik,
Rüzgarda dəyən, başıboş və ürkək.
Sən əlimdən tutanda
Qayaları dəlib çıxardı bir çiçək.

Sən əlimdən tutanda
Yollar basardı içimi,
külrəngi buludlara ilişərdim günlərlə...

## Dərə

Səhərin sərinində
uzanıb gedən kiçik dərə,
ilk bahar yağışları gələndə
harada olacağam?
Sən indi çağlayarkən
söyüdlərin altında,
mən indi küsüşmək üzrə olan
su damlası qədər məhzun -
hansı ağacın altında yatacağam?

Sən hər yağan yağışla
daha gənc,
mən hər ötən günlə
daha qoca,
kölgəm hər gecə
daha yorğun -
hara qədər gedəcəyəm?

Bu qarşıdakı dağlardadır doğuluşunun səbəbi,
hər gün, hər saat, hər dəqiqə.
Mənimsə ölümüm o dağlardadı, bəlkə,
bəlkə, sabah, bəlkə, bu gün.

Ya bu boynunu büküb dayanan
çinar ağacı,
uzun gecələr boyunca
söhbətləşdiyim bu külək,
və sən, su damlası,
kim bilir, harada
nə vaxt
görüşərik.

## Türkü

Kim gətirdi bu türkünü
belə incik yanıma,
içimə axır əriyən mərmi,
gecəyə toxunan gözümə baxma.

Ölüm yavaşça qonmuş budağıma
(Üç göyərçin, ağappaq),
Xallı külək, sabahı soruşma,
Bu son ildir, bəlkə də, axırıncı yay.

## Çiçəkləri tökülən ağac

Yalnızam,
soyuq bir dənizin maviliyində
içim-çölüm qupquru,
qırılır əlimi atdığım hər şey,
parça-parça olur sevgilər,
kimsəsizləşir keçdiyim yollar,
kölgəm belə qorxur artıq məndən.

Qapqara bir qaranlıq
uzanır damarlarıma,
süzülür içimə yağış yüklü buludlar,
çıxılmaz küçələrdə düşür gecə,
içimdə bir uşaq can verir səssizcə.

Yalnızam,
sabahı gözləyən pəncərəmdə
heç kim keçmir küçəmdən,
beynimin içində bir yerlərdə
çiçək açır bir ağac,
çiçəklər tökülür yerə.

Çıxmaz küçələrə enir gecə,
şəhərin kirli divarlarına,
dilsiz səkilərinə,
içimdə bir uşaq,
içimdə ürpərən dəniz,
içimdə kəsməyən ağrı.

Mən
çiçəkləri tökülən ağacam.
Uzaqda qalan

Yalnızlıq getdiyin yoldan gəlir.
Oktay Rıfat

Əlvida, gəncliyim, bir daha görüşərikmi?!
Zaman dəryaları qaranlıq dənizlərə axır,
Getdiyin yoldan gəlir ölüm.

Əlvida, gəncliyim, küsməmişəm səndən,
Bu əclaf, bu çirkli, bu qəddar dünyada
İçimdə bircə sən tərtəmiz qaldın

Xatirələr getdikcə daha uzaq,
Ölüm getdikcə yaxın.

## Ölü göyərçin yüklü gəmilər

Bu limana ölü göyərçin dəstələri
Daşıyan gəmilər yan almaz.
Bu limana düşməz kölgəsi
Sentyabrda ayrılan aşiqlərin.
Gecə yanağından oğurlayanda ayı
Sinəni aç
Bəyaz bir xəncər kimi çəkilsin əlim.

Sənə ən sakit hekayələrin
Detallarından danışacam -
Hərflərin bir-bir yerini dəyişdirdiyi
O yad hekayələri.
Ki, necə başlayıb,
Necə bitdiyini bilirik.
Amma yenə də dinləməkdən doymuruq.
Bəlkə, nə vaxtsa,
Bəlkə, nə vaxtsa
Hər hekayə öz sonunu yazar deyə.
Dinlə, gecənin neçə addım uzağında
Ölü tabutları suya salır bir əl.
Bir əl zanbaqlar əkir bağçasına,
Hər mövsüm onları toplasın deyə külək,
Xəyallarımızın ilk baharıdır, açılır bir-bir buludlar.
Açılır nağıl bağçaları,
Ki orada hekayələr xoşbəxt sonluqla bitər.
Və batar gecənin qaranlıq sularında
Ölü göyərçin yüklü gəmilər.

Susma daha, nolar, deyiləsi nə varsa, de,
Bilirsənmi, qaranlıq suları
Qaranlıq sular udar.
Sən yaralı bir at kimisən - vəhşi və dinməz.
Və asanca tabe olursan düşmən çapara.

Ölü göyərçin daşıyan
Gəmilər yan almaz bu limana.

## Payız sonu

Adnan Özərə
"Payız bir təsadüf"
misrası üçün

1.

Şamlar bir-bir əriyər,
            sonra yavaşca bədənimdə sönər,
Payızın əli dəyəndə
                        qızıl misə dönər.

İndi hardasan? Nə çox gözlədim,
Tükəndi yarpaqlarım.
Külək buludların köksündən damlaları oğurladı,
məni
            qatdı qabağına,
Pas tutmuş yollarından keçirdi gəncliyimin,

Payız yalnızca bir təsadüfdü,
Ağac bunu nə bilsin?

2.

Hər yağışla bir az daha qocalırıq,
Bulud bilirmi bunu?
Dəniz diblərini qarışdıran bu qorxu,
bu üz,
Güzgülərdə unutduğum
Bu təlaş kim üçündü?
Vaxt gələr, səssizliyin qayası çatlayar,
Vaxt gələr, bu avara külək qonar başımıza.
Fırtınalar qaranquş qanadlarında durulur.

Və mis yenidən qızıl
Və yağış yenidən bulud olur...

## Pessimist ağacın nəğməsi

Sizləri külək alıb apardı məndən,
Qayıdın geri, ey yarpaqlarım,
Gəncliyim, bütün gözəlliyim.
Fəsillər, rəhminiz gəlsin mənə,
Ya da qurudun
Altımda bu dərdsiz-sərsiz axıb gedən çayı.

## Optimist ağacın nəğməsi

Sizləri küləyə tapşırdım, gedin,
Başqa torpaqlarda qurun krallığınızı.

Gecə lacivərd bir sehrbazın sehrli küresi,
Hər şeyin qəfildən dayandığı bir saat.

Bu gecə acı bir qan dadı var dodaqlarımda.

Ayrılıq çətin, bilirəm, qanımla bəslədim sizi,
Gedin, ey yarpaqlarım, toxumlarımızın səpələndiyi ölkəyə,
Dost olun, sirdaş olun, çoxalın
Axşam kölgələri kimi.

## Külək

Evimin arxasında külək
Mən baxmasam, vıyıldayır,
Mən baxsam, hər yer səssiz.
Pəncərədən görünən ağacın budağında
külək gizlənib.

**Türkiyə türkcəsindən uyğunlaşdıran:**
**Ramil Əhməd**